**S.Ə.MÜZƏFFƏRLİ**
*müəllim*
**:https://orcid.org/0009-0009-4235-7706**

**Bakı Slavyan Universiteti**
(Bakı şəh., S.Rüstəm küç., 33)

**10.62021/0026-0028.2024.4.163**

# C.MƏMMƏDQULUZADƏNİN NƏSRİNDƏ SOSİAL PROBLEMLƏRİN İNİKASI

***Xülasə.*** *Məqalədə XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda yaşanan dözülməz şərait, bu şəraitin C.Məmmədquluzadənin hekayələrində əksi araşdırılmışdır. C.Məmmədquluzadənin bədii yaradıcılığına hekayə, povest, novella, dram və publisistika janrlarında yazılmış əsərlər daxildir. Müxtəsərlik, təsvirlərin düzgünlüyü, surətlərin reallığı, dilin oynaqlığı və lakoniklik C.Məmmədquluzadənin üslubunun əsas xüsusiyyətləridir. Ədib hekayə və novellalalrını təbii və bədii dildə yazmaqla, canlı xalq dilindən geniş istifadə etmişdir. Yazıçı öz əsərlərində kiçik insanlaın tərəfdarı kimi çıxış edir, ədalətsizliklərə, həyatın qeyri-mükəmməlliyinə qarşı barışmaz mövqe sərgiləyir.*

***Açar sözlər:*** *Azərbaycan, ədəbiyyat, nəsr, mövzu, əsər*

Böyük Azərbaycan ədibi Sabirin müasiri olan Cəlil Məmmədquluzadənin tərcümeyi-halı o dövrün tipik maarifçi ziyalısının həyat yolunun mərhələlərini əks etdirir. “XX əsr Azərbaycan ictimai bədii fikrinin parlaq simalarından olan Cəlil Məmmədquluzadə çoxcəhətli fəaliyyəti ilə Azərbaycan ədəbiyyatında tənqidi realizmi yeni və satirik istiqamətli bir mərhələyə çatdırdı. Novator sənətkarın yaradıcılığı, klassik sənət əsərləri ilə yanaşı duran bədii nəsri mövzu-ideya, poetik forma etibarilə kamil sənətkarlıq nümunələridir” [4, s. 147].

C.Məmmədquluzadənin əsərləri bu gün də öz aktuallığını qoruyub saxlayır. Əsərləri sənətkarlıq və ideya-məzmun xüsusiyyətləri cəhətdən yüksək təsir gücünə malik olmasına baxmayaraq ədəbiyyatşünaslıqda lazımınca araşdırılmamış və lazımi dəyərini almamışdır. Bu isə öz növbəsində tədqiqatımızın aktuallığını şərtləndirir.

Yaradıcılığında M.F.Axundovun realizm ənənələrini davam etdirən C.Məmmədquluzadə sadə xalqın, məzlum kəndlinin həyatına müraciət edir. Yazıçı sadə insanın azad və məhrumiyyətsiz yaşamasına mane olan, onun insan ləyaqətini eybəcərləşdirən və təhqir edən hər bir şeyə qarşı çıxır.

Əsərlərində müxtəlif mövzulara müraciət edən yazıçı Azərbaycanda müvafiq dövrdə olan sosial şəraiti, bu şəraiti doğuran zəmini də gösərməyə çalışmışdır. Bütün köhnəlik və geriliklə mübarizə aparan ədib öz yaradıcılığında onların mənfi təsirini real boyalarla və əyani surətdə göstərir.

Ədibin elmi-publisistik görüşlərində geniş yer tutan müasir insan və zaman məsələsi onun hekayələrində canlı bədii obrazlarla təcəssüm tapmışdır. Onun 1923-cü ildə qələmə aldığı “Bəlkə də qaytardılar” adlı hekayəsi bu baxımdan maraqlıdır. Hekayə sadə bir süjet əsasında qurulmuşdur. İstirahətini Bakıda keçirən Mirzə Cəlil yay günlərinin birində “Tənqid-təbliğ teatrosu”nun əməkdaşı məşhur artist dostu Balaqədəşi axtarmaq məqsədilə dəniz kənarına gedərkən bulvarın dalda yerində təsadüfən rast gəldiyi və xısın-xısın söhbət edən, xoflu adamlar kimi tez-tez o tərəf, bu tərəfə baxan, bir adam görərkən, səs eşidəndə susan, üzünü örtən, əllərində oxuduqları rüznaməni gizlədən qəribə adamlara rast gəlir. Bu hadisə də “Bəlkə də qaytardılar” hekayəsi üçün bir bəhanə olmuşdur. Əslində isə ədib əsərində çox mühüm, incə məsələlərə toxunmuşdur.

Qeyd etmək lazımdır ki, yerli-yerində bədii ricətlərə müraciət edən ədib oxucunun marağına səbəb olan detallardan ustalıqla istifadə edir. Yaratdığı obrazlar vasitəsilə cəmiyyətə olan münasibətini tipik əhvalatlar fonunda ümumiləşdirir. Maraqlı kompozisiya qurur. Ədib hekayənin ilk səhifələrindən oxucunun marağına səbəb olan hadisələri ön plana çəkir. Bu qəribə adamların kimliyi və təlaşı halları haqqında geniş məlumat verməyə də tələsmir. Oxucuların maraq və nigarançılığına səbəb olan bu hadisə o qədər də uzun sürmür. Bir təsadüf üzündən açılır. Bulvarda rast gəldiyi artist Balaqədəş köməyinə çatır. Bu cəmiyyətin qaçan, yeni quruluşla hesablaşmayan, keçmişin gec-tez geri qayıdacağına ümid bəsləyən qüssəli müsəlman qardaşlarının "dərdləri" ilə onu tanış edir.

"Bəlkə də qaytardılar" hekayəsi təkcə quruluşuna görə deyil, ideya və məzmununa, üslub xüsusiyyətlərinə görə də orijinal bir hekayədir.

Xarici hərbi müdaxilə, imperialistlər tərəfindən çar borclarının tələb edilməsi, müxtəlif ağır şərtlərə əsaslanan siyasi notlar, daxili əksinqilabi ünsürlər narazılığı və başqa bu kimi tarixi həqiqətlər ədibin yaratdığı satirik tiplərin həyatiliyini, reallığını, inandırıcılığını göstərir, tarixi həqiqətlə bədii həqiqəin sənətkarlıqla verilmiş bədii vəhdətini nümayiş etdirir. Hekayənin qəhrəmanlarının arzu və istəkləri, xəyal və düşüncələri keçmişin bir də geri qayıtması arzuları, bu arzu uğrunda mübarizə aparan, əlləri hər şeydən üzüləndə isə xəyala qapılmaq, boş xülyalara ümid bəsləmək olmuş, bundan uzağa gedə bilməmişlər. Bu kimi tiplər sənətkar Mirzə Cəlilin qələminin qüdrətilə canlanmış və "allah kərimdir, bəlkə də qaytardılar" kinayəli ifadələri ilə satira atəşinə tutulmuşlar. Böyük ədib əsərin sonunda bu tiplərin səciyyəvi xüsusiyyətlərini ümumiləşdirərək xalqın var-yoxunu əlindən alan bu ünsürləri özünəməxsus bir üslubda belə təsvir edir: "Ya Musa Nağıyev iki yüz otuz yeddi əla tikilisini əlindən alasan və onun varisinə, barı 5-10 ev qaytarıb verməyəsən ki, zəhmətə adətkərdə olmamış o biçarə zəhmət çəkməyə məcbur olmasın və camaat içində xəcalət çəkməsin" [2, I, s. 287].

Əsərdə yazıçı fikirlərinin bədii ifadəçisi kimi hadisələrin sonuna qədər iştirak edən artist Balaqədəş surətini böyük ustalıqla yaratmışdır. Müəllif onu həyatdan bir sinif kimi silinmiş insanların səciyyəvi xüsusiyyətlərini ifşa edən ifşaçı bir obraz kimi təqdim etmişdir. Bir-birilə tez-tez görüşüb, birinin digərinə ürək-dirək verməsini və "inşallah muradımıza çatarıq", "bəlkə də qaytardılar" arzusunda olanların bədii obrazını da artist Balaqədəş surətində yazıçı bütün şərq aləmi üçün tipik olan müsəlman dedi-qodusuna, ara söhbətə, millətin evini yıxan qiybət və s. məsələlərə qarşı çıxmışdır.

Əsərdən məlum olduğu kimi, Balaqədəş bir sənətkar kimi yalnız səhnə üçün yazılmış əsərlərdə çıxış edib öz vəzifəsini bitmiş hesab edənlərdən deyil, o, daim axtarışda olan, müşahidələr aparan, həyatda qarşısına çıxan hadisələrə günün tələbləri nöqteyi-nəzərindən yanaşan yaradıcı sənətkardır. Elə məhz onun bu müsbət keyfiyyətləri, xəlqi və milli görüşləri yeni quruluşun qanun və qaydaları ilə bağlı olub, cəmiyyətdən qaçıb, daldada özlərinə sığınacaq tapıb dərdləşən tüfeylilərin əksini təşkil edir. Balaqədəş mənsub olduğu sinfin bir nümayəndəsi kimi həyatda da, səhnədə də haqsızlığa qarşı amansızdır. Qarşısına çıxanlar hər bir hadisəyə obyektiv münasibət bəsləyir. Xalqın və millətin tərəqqisinə, onun qələbəsinə biganə olan məsləksizlərə qarşı nifrətlə yanaşır.

Xalqdan və cəmiyyətdən ayrı düşən bu biçarələrin halına "acıyan" Balaqədəş özünəməxsus yumoristik bir dillə onları ələ salır və: "...heç bir zərrə qədər fikir eləməyin. Siz öləsiniz, saxlaya bilməyəcəklər, hamısını qaytaracaqlar" – kimi ifadələrilə keçmişin bu tör-töküntülərinə zərbə endirir [2, I, s. 283]. Və: "– Molla dadaş, sən bu namərd dünyanın işinə bax ki, bu əyləşən dostlarım bir-iki il bundan qabaq hərəsi bir neçə milyona pul demirdi. Amma indi allahdan gizli deyil, səndən niyə gizli olsun ki, Şura hökuməti indi bu biçarələri papiros puluna möhtac eləyib. Ay namərd dünya!" – deyib bu "bədbəxtlərin" adlarını bir-bir sadalayır [2, I, s. 283]. Bulvarın bir küncündə oturub təzə xəbər sorağında olan bu politikaşünas hərflərin hərəkətlərini və "...allah kərimdir, bəlkə də qaytardılar" – kimi arzularına gülə-gülə cavab ve-

rir. Onları şəbehini çıxardıb, çıtmıq çalıb, oynaya-oynaya, oxuya-oxuya "bəlkə də qaytardılar, bəlkə də qaytardılar" – deyib gözü yolda, qulağı səsdə olan rəfiqələrinə təskinlik verir.

Hekayə maraqlı bir sonluqla bitir. Ədib "Axır söz" başlığı altında bu gözləri yolda, qulağı səsdə olan, ümidləri hər yerdən kəsilən nadan bəxtiqaraların məyusanə hala düşdüklərini özünəməxsus yumoristik bir üslubda belə təsvir edir: "Bir vaxt vardı ki, mən də və mənim dörd nəfər həmsöhbətlərim də hər gün və hər saat müntəzir idik. Və qulağımız səsdə idi ki, bax, bu gün-sabah iş bir təhər olacaq ki, mənim əyalımın da 4000 desyatin sulu torpağını özümə qaytaracaqlar və mənim bu dörd nəfər bulvar müsahiblərimin də milyonlara dəyən əmlakını və neft mədənlərini özlərinə qaytaracaqlar.

Gözlədik, gözlədik... axırı bir şey olmadı". ...Və müxtəsər həmin müsahibətlərimlə tez-tez görüşüb-danışırdıq, dərdləşirdik, bir-birimizə ürək-dirək verirdik və həmişə ayrılanda da ümidvarlıqla ayrılırdıq ki, inşallah, muradımıza çatarıq və inşallah, şayəd iş elə gətirdi ki, bəlkə mülk və maaşımızı qaytardılar özümüzə.

"Bəlkə qaytardılar". – Bu idi gecə-gündüz dilimizdə əzbər olan sözlər.

... Daha mənim ümidim kəsilir və mənim kimilər də çoxları daha məyus olub hərə yavaş-yavaş özünə iş axtarmağa başlayır" [2, I, s. 287].

"Bəlkə də qaytardılar" adı hekayəyə təsadüfi verilməmişdir. Bu ad və ədibin müxtəlif hekayələrinə verdiyi buna bənzər adlar, yeni hekayələr uzun illər müsəlman qardaşlarının həyatını öyrənmək, onların xarakterini üzə çıxarmaq üçün əsas vasitələrdən biri olmuşdur. Bu səciyyəvi xüsusiyyətlər, onun axtarışları və tapıntıları cəsarətlə demək olar ki, xəlqi və milli zəminlə bağlı olmuşdur. Gözü önündə cərəyan edən hadisələrdən, əsərin məzmun və ideyasından doğmuşdur. Özü də ardıcıl şəkildə. Bütün bu məziyyətləri ədibin qələmə aldığı hər bir əsərinə verilmiş adlarda da görmək olar. Elindən, obasından ayrı düşmüş, xalqın şirin dilindən, adət və ənənəsindən yad vətənsizlər böyük ədibin əsərlərinin əsas tənqid hədəfi olmuşlar.

**Məqsəd və vəzifələr** Tədqiqatın əsas məqsədi C.Məmmədquluzadə bədii nəsr qəhrəmanlarını əhatə edən sosial mühiti, onun üçün münbit zəmin olmasını araşdırmaq, ədəbi qəhrəmanların faciəvi talelərinin komik üslubda ifadə xüsusiyyətlərini müəyyənləşdirilməkdir. Bu məqsədə nail olmaq üçün yazıçının hekayələrində qəhrəmanları əhatə edən sosial mühitin xüsusiyyətlərini göstərmək qarşıya qoyulan əsas vəzifələrdəndir.

**İşin elmi nəticəsi:** beləliklə, yazıçı mövcud ağır şəraiti – xalqı çapıb talayan, onu gözü bağlı saxlayanların əməllərini tənqid edir və göstərir ki, bu avam zəhmətkeşlərin canına, malına qəsd edən istismarçıların, vətəni pulla satan rüşvətxorların, yetim malı yeyənlərin, camaat malına xəyanət gözü ilə baxanların, fırıldaqçıların və s. bu kimi tüfeylilərin qol-qanad açdığı bir mühiti qəbul etmir, ona nifrəti hədsizdir.

Öz yaradıcılığında realizm ənənələrini davam etdirən C.Məmmədquluzadə sadə xalqın, məzlum kəndlinin həyatına müraciət edir. Yazıçı sadə insanın azad və məhrumiyyətsiz yaşamasına mane olan, onun insan ləyaqətini eybəcərləşdirən və təhqir edən hər bir şeyə qarşı çıxır. Yazıçının silahı – müxtəlif formalara və təzahürlərə, çalarlara və boyalara malik olan gülüşdür. Çox zaman bu göz yaşları içində gülüşdür, çünki yazıçının əsərlərinin əsas obyekti sadə, xurafatlar və mövhumatlar içində boğulan, xeyirxah insanlar, dürüst zəhmətkeşlər idi.

**İşin elmi yeniliyi:** məqalədə qaldırılan problem bir çox milli ədəbiyyatşünaslar tərəfindən tədqiq olunsa da ədəbi-nəzəri fikrimizdə müvafiq səviyyədə araşdırılmamış, tədqiqatların elmi predmetinə çevrilməmişdir.

**İşin tətbiqi əhəmiyyəti:** məqalədə tədqiq olunan mövzu Azərbaycan ədəbiyyatı üzrə mühazirələr və praktik məşğələlərin tədrisində istifadə oluna bilər.

C.Məmmədquluzadənin bədii yaradıcılığı çoxşaxəlidir. Azərbaycan ədəbiyyatında tanınmış simalardan olan C.Məmmədquluzadənin ralizmi, onun təsvir etdiyi sosial şərait, müəllifin yaratdığı surətlər XIX-XX əsrlərin qovşağında ölkədə tarixi vəziyyəti heyrətamiz dəqiqliklə əks etdirir.

Beləliklə, müxtəsərlik, təsvirlərin düzgünlüyü, surətlərin reallığı, dilin oynaqlığı və lakoniklik C.Məmmədquluzadənin üslubunun əsas xüsusiyyətləridir. Öz hekayə və novellalarını təbii və bədii bir dildə yazmaqla, canlı xalq dilindən geniş istifadə etmişdir. Yazıçı öz əsərlərində kiçik insanlaın tərəfdarı kimi çıxış edir, ədalətsizliklərə, həyatın qeyri-mükəmməlliyinə qarşı barışmaq mövqe sərgiləyir.

**Ədəbiyyat**


1. Məmmədov M. C.Məmmədquluzadənin bədii nəsri / M.Məmmədov. – Bakı, – 1963.
2. Məmmədquluzadə C. Əsərləri. Dörd cilddə / C.Məmmədquluzadə. – Bakı: Öndər nəşriyyatı, – 2004.
3. Məmmədov M.M. Cəlil Məmmədquluzadə hekayələrinin nəşri tarixinə dair // Ədəbiyyat məcmuəsi. Nizami adına Ədəb. və Dil İnstitutunun əsərləri, XI c., – 1957, – s.105-119.
4. Vəlixanov N. Azərbaycan maarifçi realist ədəbiyyatının inkişafı. (1890-1917 illər). – Bakı, – 1963.


**S.A.Muzaffarli**

**The Reflection of Social Problems in the Prose of J.Mammadkulizade**

***Summary***

The article examines the unbearable conditions that existed in Azerbaijan at the end of the XIX-beginning of the XX century, and the description of these difficult conditions in the stories of J.Mammadkulizade. The artistic work of J.Mammadkulizade includes works written in the genres of short stories, novellas, short stories, dramas and journalism. The variety, accuracy of descriptions, realism of images, playfulness and conciseness of language are the main features of J.'s style.Mammadkulizade. The writer made extensive use of the living folk language, wrote his short stories and short stories in natural and artistic language. In his works, the writer acts as a supporter of the little man, shows an irreconcilable position against injustice, imperfection of life.

***Key words:*** *Azerbaijan, literature, prose, theme, work*

**С.А.Музаффарлы**

**Отражение социальных проблем в прозе Дж.Мамедкулизаде**

**Резюме**

В статье исследуются невыносимые условия, существовавшие в Азербайджане в конце XIX-начале XX века, и описание этих тяжелых условий в рассказах Дж.Мамедкулизаде. Художественное творчество Дж.Мамедкулизаде включает произведения, написанные в жанрах рассказа, повести, новеллы, драмы и публицистики. Разнообразие, точность описаний, реалистичность образов, игривость и лаконичность языка – это основные черты стиля Дж.Мамедкулизаде. Писатель широко использовал живой народный язык, писал свои рассказы и новеллы на естественном и художественном языке. В своих произведениях писатель выступает как сторонник маленького человека, проявляет непримиримую позицию против несправедливости, несовершенства жизни.

***Ключевые слова:*** *Азербайджан, литература, проза, тема, произведение*

*Rəyçi: dos. F.M.Məmmədov*

*Redaksiyaya daxil olub: 10.11.2024*